# Dərman bitkiləri

Bitkilərin müalicəvi xüsusiyyətləri insanlara qədim zamanlardan məlumdur. «Min dərd varsa, min bir də dərmanı var» deyən ulularımız öz azar-bezarlarını bitkilərdən hazırladıqları dərmanlarla müalicə ediblər. Həmin müalicə üsulları zamanın sınağından uğurla çıxıb və bugünki elmi-texniki tərəqqi əsrində də öz əhəmiyyətini itirməyib. Hətta bir vaxt xalq təbabətinə türkəçarəyə qısqanclıqla yanaşan elmi təbabət də bu gün onun əhəmiyyətini etiraf edir. Qeyd etmək lazımdır ki, bitkilərdən hazırlanan dərmanlar heç vaxt fəsad törətmir. Bitkilərin müalicəvi xüsusiyyətlərini nəzərə alıb onlardan bəziləri barədə aşağıda qısa məlumat dərc edirik.

**GİLAS.** Gilas iştahanı artırır. Gilas qədimdən Azərbaycanda geniş yayılıb. O tez həzm olunur, qəbizlik zamanı çox faydalıdır, öskürəyin qarşısının alınmasına da kömək edir. Arıqlamaq istəyənlər nahardan əvvəl gilas yemək məsləhətdir. Şəkərli diabetə tutulanlara gilas üzümdən də xeyirlidir. Lakin onu acqarına yemək olmaz. Gilasın saplağını dəmləyib sidikqovucu vasitə kimi içirlər.

Rayonumuzda cürbəcür gilas yetişir. Qara gilas, ağ gilas, qırmızı gilas, yanağı qırmızı-sarıya çalan gilas. Peyvənd və cır gilas sortları da mövcuddur. O gilas təzə halda və emal olunmuş şəkildə qiymətli qidadır. Tərkibində şəkər, üzvü turşular, kül elementləri, boyayıcı və aşı maddələri, sellüloza, C, B2 vitaminləri və karotin var. Çəyirdəyindən yağ da olur. Mədə-bağırsaq, sidik yolları xəstəliklərində, eyni zamanda maddələr mübadiləsini tənzimləyən, sinəyumşaldıcı vasitə kimi istifadə edilir. Qara ciyər xəstəliklərinin müalicəsində də gilas və onun şirəsi kara gəlir. Diabetli xəstələrin turş, qırmızı gilas qəbul etmələri tövsiyə olunur.

Gilas həm də süfrələrin bəzəyidir. Süfrədə gilas adamda yeməyə həvəs oyadır. O, əsl iştahartırıcı pəhriz qidasıdır. Gilasdan faydalı içkilər, şirələr, kompot və çəyirdəyini çıxarmaqla ətirli mürəbbə hazırlanır. Açıq rəngli sortlardan düzəldilmiş mürəbbələr daha dadlı olur. Çay dəsgahında gilas mürəbbələrinin məxsusi yeri var.

**TƏRXUN.** Ölkəmizdə geniş yayılmışdır. Çoxillik ədviyyətli bitkidir. Hələ qədimlərdə bir sıra xəstəliklərin müalicəsində ondan istifadə ediblər. Həkimlər onu yel xəstəliyi olanlara məsləhət görüblər, eyni zamanda, onun iştah artırma, həzm prosesini yaxşılaşdırma xüsusiyyətlərinə malik olduğunu bildiriblər. Köklərindən alınan ekstrakt əsəb xəstəliyinin müalicəsində işlədilir. Tərxundan ürəkgetmə və sancı zamanı xüsusilə istifadə edirlər. Xalq təbabətində bədən boşluqlarına su yığılmasında, dişin skorbut xəstəliyinin müalicəsində ona müraciət ediblər.

Tərxundan xroniki mədə iltihabı (qastrit) və vitaminoz xəstəliklərinin müalicəsində istifadə olunur. Ondan alınan ekstrat mədə şirəsi ifrazının pozulması ilə əlaqədar olan hipoqastrit xəstəliyinin müalicəsində istifadə edilir. Bunun üçün yeməkdən 15-20 dəqiqə əvvəl 1-2 xörək qaşığı tərxun ekstratı qəbul edilməlidir. Bu, mədə şirəsinin turşuluğunu normal hala salır.

**ZƏFƏRAN.** Qiymətli dərman bitkisidir. İnsanlara qədim zamanlardan məlumdur. Dünyanın çox az yerində bitir. Abşeronda bitən zəfəran düzgün qaydada yetişdirilsə, dünyada tayı-bərabəri olmayan Avstriya zəfəranının şöhrətinə şərik çıxar.

Vaxtilə xalq təbabətində qıcolmaya, göz ağrısına, göy öskürəyə tutulanları onunla sağaldıblar. Məşhur yunan həkimi Hippokrat da müalicə məqsədi ilə ondan istifadə edib. Zəfəran soyuqdəyməyə qarşı əlac olaraq işlədilir. İnsanın eşitmə, görmə qabiliyyətini artırır, maddələr mübadiləsinin gedişini normal hala salır.

Zəfəran mədə-bağırsaq xəstəliyində iltihabı aradan qaldırır, böyrəkdə baş verən çürümənin qarşısını alır. Gözə kənar bir element düşəndə, yaxud iltihab baş verəndə zəfəran suyu ilə yumaq yaxşı nəticə verir.

# Müdrik deyimlər

Ağıl qafilə rast gələndə ondan mərifət ummamalıdır, qafil çənəboğaz etməklə aqilə üstün gəlsə də burda qəribə bir şey yoxdur, bəzən daş da almazı qıra bilər.

**İran aforizmi.**

* * *

Sözünü yadında saxlayan ağıllı, nağılı yadında saxlayan isə müdrik olur.

**Monqol atalar sözü.**

* * *

Şübhə insanı rahat qoymaz, amma çox bəlalardan qurtarar.

**Türk atalar sözü.**

* * *

Ümid qızıl kimidir, heç bir mühitdə paslanmaz.

**Anaqsaqor.**

* * *

İnsan zehninin inkişafı onu müdrikliyə, müdriklik də öz növbəsində iztirablardan xilas olmağa doğru aparır.

**Hind aforizmi.**

* * *

Ağıl kamilləşdirmək üçün çox düşünmək lazımdır.

**R. Dekart.**

* * *

Ağıl naşının kobudluğuna dözməməlidir, çünki zərər ikiqat olur: birinin hörməti azalır, o birinin azğınlığı artır.

**İran aforizmi.**

* * *

Özünü idarə edə bilməyən insan, başqasına ağıl verə bilməz.

**Demokrit.**

* * *

Görmək və anlamaq sevinci təbiətin gözəl hədiyyəsidir.

**A. Eynşteyn.**

Bacarıqlı insan üçün qeyri-mümkünlük yoxdur.

**O. Mirafo.**

* * *

Adamlarla ünsiyyətdə insanın zəkası son dərəcə aydınlaşır.

**M. Monten.**

* * *

Hünərini, malını dostundanda gizlət ki paxıllıq edər.

**Ərəb aforizmi.**

* * *

Bilmək gələcəyi görmək üçün, gələcəyi görmək özünü görmək üçündür.

**O. Kontt.**

* * *

Əgər biz öz zəif cəhətlərimizi biliriksə, bizə ziyanı dəyməz.

* * *

**G. K. Lixtenberq.**

Özün özünü dərk et, hər şeyin həddini gözlə.

**Platon.**


# Bütün iş adamlarına, vətəndaşlara!

## “Qəbələ” qəzetinin reklam xidməti sizinlədir

Siz sərfəli müqavilə qiymətləri ilə hər nömrəsi 2.100 nüsxə tirajla çap olunan və rayonun bütün bölgələrində kütləvi tirajla yayılan, muzeylərə, kitabxanalara, Bakı şəhərində ayrı-ayrı xüsusi idarə və müəssisələrə, abunəçilərə göndərilən qəzetin

**reklam xidmətindən istifadə edə bilərsiniz**

Qəzetin səhifələrində övladlarınızın, yaxınlarınızın, dostlarınızın ad günlərini, toy şənliklərini təbrik etmək sizə böyük şərəf və duyğu gətirə bilər.

Qəzetdə ev alqı-satqısı, dəyişdirilməsi, sənədlərin itməsi və ya tapılması, digər məsələlər barədə elanlar da dərc olunur.

**TİCARƏT MÜƏSSİSƏLƏRİ, ŞİRKƏTLƏR!**

Qəzet məhsullarınızın satılması, daşınması, bu və ya digər işlərin görülməsi, habelə katirovka sorğularının dərc olunması barədə reklamlar və elanlarla da sizin xidmətinizdədir.

**İstədiyiniz vaxt buyurun, gəlin, zəng edin:**

**Ünvanımız:** Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 56.

**Telefonlar:** 5-19-14, 5-15-56, Mob: 050-328-11-42.



Redaktor O. Ə. Məmmədov.

TƏSİSÇİLƏR: Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

Məsul növbətçi N. R. Atakişiyev.

ÜNVANIMIZ: AZ 3600, Qəbələ şəhəri, İ. Qutqaşınlı küçəsi, 56. Redaktor: 5 - 19 - 14. Ümumi: 5 - 15 - 56.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir. “Kapitalbank”ın Qəbələ filialında hesab № 33080019444900218149 VÖEN: 4400103601 Lisenziya AV № 022611

Qəzet “Qəbələ” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilmişdir. Tiraj 2100. Sifariş №